# Azərbaycan Cənubi Qafqaza birlik, inkişaf, rifah gətirir

## Ermənistanda da yeganə nicat yolunun barışıq olduğunu anlayırlar

Avqustun 8-də ABŞ-də Azərbaycanla Ermənistan arasında sülh sazişinin mətninin paraflanması tərəflərin sülhə daha da yaxınlaşdığını təsdiqləyən reallıqdır. ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə keçirilən görüşdə əldə edilən nəticələr həm Azərbaycanda, həm də Ermənistanda müzakirə mövzusu olaraq qalır.

Azərbaycanda ölkə ictimaiyyəti, siyasi ekspertlər arasında aparılan müzakirələrdə sülhün tezliklə əldə olunması, regionda təhlükəsizliyin təmin edilməsi və bununla da Cənubi Qafqazda yeni inkişaf dövrünün başlanması üçün real imkanın yarandığı bildirilir.

Ermənistanda isə xalqın mütləq əksəriyyəti baş nazir Nikol Paşinyanın yürütdüyü siyasəti dəstəkləsə də, köhnə "hərbi xunta", yəni revanşist qüvvələr ara qarışdırmaqala sülh müqaviləsinin imzalanmamasına çalışırlar.

Bununla belə, erməni siyasi ekspertlərin əksəriyyəti hesab edirlər ki, Vaşinqton görüşü və Azərbaycanla sülh müqaviləsinin paraflanması dönüş nöqtəsidir. Elə Nikol Paşinyan da xalqa müraciətində bunu təsdiqləyib. Ölkə vətəndaşlarına müraciətində bir sıra maraqlı açıqlamalar verən baş nazir deyib ki, Vaşinqtonda keçirilən görüşdən sonra Ermənistanla Azərbaycan arasında sülh yaranıb: "Avqustun 8-dən sonra biz tamam başqa Cənubi Qafqazda, tamamilə başqa Ermənistan Respublikasında yaşayırıq. Bu faktı dərk etmək lazımdır. Bu, asan deyil, çünki bu, bizim üçün qeyri-adi vəziyyət və reallıqdır. Biz sülhün nə olduğunu bilmirik, sülh şəraitində yaşamaq və işləmək nə deməkdir. Bu, bizim üçün qeyri-adi hissdir. Sülhdə yaşamağın nə demək olduğunu sıfırdan öyrənməliyik". Baş nazir bildirib ki, avqustun 8-də imzalanmış Vaşinqton Bəyannaməsi və paraflanmış sazişlə Ermənistan və Azərbaycan 1991-ci il Almatı Bəyannaməsi əsasında bir-birinin sərhədlərinin toxunulmazlığını və ərazi bütövlüyünü tanıyıb.

N.Paşinyan anklavlarla bağlı qeyd edib ki, bu məsələ də delimitasiya və demarkasiya prosesində qarşılıqlı şəkildə həll edilməlidir: "Hazırda Azərbaycanın nəzarətində olan Ermənistanın suveren əraziləri kimi, bizim nəzarətimizdə olan Azərbaycanın suveren əraziləri var və bu məsələ demarkasiya prosesində qarşılıqlı şəkildə həll olunmalıdır".

Dünən isə Ermənistana məxsus "Teleqram" kanallarında N.Paşinyanın fikirlərinə istinadən xəbər yayılıb. Bildirilib ki, baş nazir "bizim nəzarətimizdə olan Azərbaycanın suveren əraziləri var" fikrini səsləndirərkən Ermənistanın Azərbaycana məxsus Sofulu, Barxudarlı, Yuxarı Əskipara və Kərki kəndlərini də təhvil verməyə hazırlaşdığını vurğulayıb.

Qeyd edək ki, ötən il Ermənistan tərəfindən Qazax rayonunun 30 il işğal altında olan Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndləri rəsmən Azərbaycana geri qaytarılıb. Bu, Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası üzrə komissiyanın 2024-cü il 19 apreldə əldə olunmuş razılaşma əsasında həyata keçirilib. Delimitasiya işləri nəticəsində 12,7 kilometr uzunluğunda sərhəd xətti müəyyən edilib və Qazax rayonunun 4 kəndinin (6,5 kvadratkilometr) Azərbaycana qaytarılması təmin edilib.

Xalqa müraciətində baş nazir bildirib ki, bundan sonra regionda sülh mühitində yaşamağı öyrənmək lazımdır.

Bu fikirlərdən də aydın olur ki, N.Paşinyan xalqı sülhə çağırır və ona səs verərək hakimiyyətə gətirən mütləq çoxluğun bu siyasəti dəstəkləyəcəklərinə inanır. Çünki ölkə ictimaiyyəti də yaxşı bilir ki, sülhdən başqa xilas yolu yoxdur. Əgər Ermənistan iqtisadi bataqlıqdan, sosial böhrandan qurtulmaq istəyirsə, sülh olmalıdır.

N.Paşinyanın çıxışından da bəlli olur ki, o, xalqı birdən-birə sərt həqiqətlə üzüzə qoymaq istəmir. Əvvəlcə "sülh psixologiyasını" formalaşdırmağa çalışır. Sonra isə konstitusiya dəyişikliyini təqdim edib məsələnin həllini istəyir.

Baş nazir bilir ki, ölkədəki revanşistlər Azərbaycanla münasibətlərin normallaşmasına, o cümlədən yekun sülh sazişinin imzalanmasına qarşı xalqı etiraza səsləyəcəklər. Onlar gələcəkdə prosesin inkişafına, o cümlədən konstitusiya dəyişikliyinə mane olmağa çalışacaqlar. Bu səbədən də N.Paşinyan indidən bir tərəfdən xalqı gələcəyə hazırlayır, digər tərəfdən isə radikalların müqavimətini qırmaq üçün tədbirlər görür. Erməni xalqı onsuz da revanşistlərə güvənmir. Mütləq əksəriyyət sülhün yeganə nicat yolu olduğunu anlayır.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.- 22 avqust (№176).- S.8.